*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1*
*Səhifə: 146-152*
*http://dx.doi.org/10.59849/2663-4406.2023.1.146*

*ISSN: 2663-4406*
*E-ISSN 2709-2699*

# Milli özünüdərkin formalaşmasında Tofiq Mahmudun uşaq dramlarının əhəmiyyəti

**İlhamə Ağazadə**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: iahmadova@inbox.ru

**Annotasiya.** Ədəbiyyat və teatrın ortaq nöqtəsi olan dramaturgiyanın uşaqların mənəvi inkişafında, milli özünüdərkin formalaşmasında rolu böyükdür. XX əsrin ortalarına doğru uşaq dramaturgiyasına olan diqqət daha da artır. Azərbaycan uşaq ədəbiyyatında müntəzəm olaraq uşaq və gənclər üçün dram yazan müəlliflərdən biri də ilk qələm təcrübələri ötən əsrin ortalarına təsadüf edən Tofiq Mahmud olmuşdur. Tofiq Mahmudun yaradıcılığının böyük hissəsi uşaqlarla bağlıdır. Müasir mövzularda qələmə alınmış pyeslərin əksəriyyəti uşaqların həyatından bəhs edən müxtəlif süjet, hadisə və surətlərlə yadda qalır. Şair çalışırdı ki, uşaqlarda xeyirxah, nəcib duyğular oyatsın. Müəllif öz dövrü üçün aktual olan mövzu və qəhrəmanlar seçmişdir. Mübarizlik, qəhrəmanlıq, vətənpərvərlik və zəhmətsevərlik motivləri onun dram yaradıcılığında da əsas mövzulardandır. Bundan başqa, məktəb mövzusu Tofiq Mahmudun uşaq pyeslərində dolğun ifadə olunmuşdur. Bu mövzuya ədib dram yaradıcılığının sonuna qədər sadiq qalmışdır. Belə ki, dönə-dönə müxtəlif pyeslərdə məktəb, pedaqoji mühit, müəllim nüfuzu məsələlərini qabartmışdır. Tofiq Mahmud kiçikyaşlı uşaqların psixologiyasına və dünyagörüşünə uyğun bir sıra pyeslər qələmə almışdır. O, Azərbaycan və dünya ədəbiyyatına məxsus nağıl obrazlarından, folklor poetikasından məharətlə istifadə etmiş, uşaq dramaturgiyasını müxtəlif bədii nümunələrlə zənginləşdirməyə çalışmışdır. Tofiq Mahmudun Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılan materiallar (Fond № 538, Siyahı №5. 1.5. Dram əsərləri. Bu siyahıya daxil olan sənədlər 1954-1997-ci illəri əhatə edir) arasında, ümumilikdə, 35 pyesi, 10 ssenarisi var. Dramaturq azyaşlılar üçün nəzərdə tutduğu pyeslərdə dilin sadəliyi, əlvanlığı ilə yanaşı, onun təsvir olunan mövzuya və hadisələrə uyğunluğuna da diqqət yetirmişdir və janrın dil-üslub xüsusiyyətlərini gözləməklə, həm də uşaqlarda romantik əhval-ruhiyyə oyatmağa çalışmışdır.
**Açar sözlər:** uşaq ədəbiyyatı, milli-özünüdərk, dram, teatr, ssenari, məktəb

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2023; qəbul edilib – 05.02.2023

# The importance of Tofig Mahmud's children's dramas in the formation of national self-awareness

**Ilhama Agazadeh**
Doctor of Philosophy in Philology
Institute of Literature nameda after Nizami Ganjavi. Azerbaijan.
E-mail: iahmadova@inbox.ru

**Abstract.** Drama, which is a common point of literature and theater, has a great role in the spiritual development of children and the formation of national self-consciousness. Towards the middle of the 20th century, attention to children's drama is increasing. One of the authors who regularly writes dramas for children and young people in Azerbaijani children's literature is Tofig Mahmud, whose first writing experience happened in the middle of the last century. Most of Tofig Mahmud's creativity is related to children. Most of the plays written on modern topics are remembered for their various plots, events, and scenes about children's life. The poet tried to arouse pleasant and noble feelings in children. The author chose themes and heroes relevant for his time. Struggle, heroism, patriotism, hard work are the main themes in his drama creations. In addition, the school theme is fully expressed in Tofiq Mahmud's children's plays. He stuck to this theme until the end of his literary drama. Thus, he raised the issues of school, pedagogical environment, and teacher's reputation in various plays. Tofig Mahmud wrote a number of plays suitable for the psychology and outlook of young children. He skilfully used fairy-tale images and folklore poetics belonging to Azerbaijani and world literature, and tried to enrich children's drama with various artistic examples. A total of 35 plays and 10 screen works of Tofig Mahmud are stored in the State Archive of Literature and Art of the Republic of Azerbaijan named after Salman Mumtaz (Fund No. 538, List No. 5. 1.5. Drama works. Documents included in this document). The list covers the years 1954-1997) In his plays for minors, the playwright paid attention to the simplicity and fluency of the language, as well as the appropriateness of the depicted topics and events. In addition to anticipating the language and style features of the genre, he tried to awaken a romantic mood in children.
**Keywords:** children's literature, national self-awareness, drama, theater, script, school

**Article history:** received – 03.02.2023; accepted – 05.02.2023





## Giriş / *Introduction*

Ədəbiyyat və teatrın ortaq nöqtəsi olan dramaturgiyanın uşaqların mənəvi inkişafında, milli özünüdərkin formalaşmasında rolu böyükdür. Akademik İsa Həbibbəyli belə bir fikir irəli sürür: "Uşaq dünyasından uşaq ədəbiyyatı dünyasına və dünya uşaq ədəbiyyatına doğru böyük ədəbiyyatın təbii inkişaf ritmləri uşaq dünyasının dərinlikləri və incəliklərinin bədii cəhətdən dərk və kəşf edilməsindən keçir. Uşaqları dərindən öyrənməyə meyil etməklə uşaq dünyasını kəşf etmək və vəsf etmək olar. Uşaq dünyasının incəliklərinə və dərinliklərinə enməklə yazılan əsərlərlə uşaq ədəbiyyatını ucaltmaq lazımdır" [1].

XX əsrin ortalarına doğru uşaq ədəbiyyatına olan diqqət daha da artır. Milli uşaq dramaturgiyası məhz bu dövrdən yeni axarda inkişafını davam etdirir. Gənc Tamaşaçılar və Kukla Teatrında yaranmış canlanma Abdulla Şaiq və Abbas Səhhətlə başlanan bu yolun layiqli davamçılarını bir-birindən maraqlı pyeslər yazmağa sövq edir. Müntəzəm olaraq uşaq və gənclər üçün dram yazan müəlliflərdən biri də ilk qələm təcrübələri ötən əsrin ortalarına təsadüf edən Tofiq Mahmud idi.

## Əsas hissə / *Main Part*

Tofiq Mahmud yaradıcılığının böyük hissəsi uşaqlarla bağlıdır. Tələbəlik illərindən uşaq ədəbiyyatına maraq göstərən şair "Göyərçin" jurnalı nəşrə başlayandan sonra bu sahə ilə davamlı məşğul olmağa başlayır və jurnalda işləməyi hər şeydən üstün tutur. Bunun əsas səbəbi şairin uşaqlara bəslədiyi böyük məhəbbət olmuşdur. Uşaqlar üçün təkcə şeirlər, poemalar yox, həm də pyeslər yazan T.Mahmudun dramaturgiyası da zəngindir. Müasir mövzularda qələmə alınmış pyeslərin əksəriyyəti gənclərin həyatından bəhs edən müxtəlif süjetlər, hadisələr, surətlərlə yadda qalır. Şair çalışırdı ki, gənclərdə xeyirxah, nəcib duyğular oyatsın. Mübarizlik, qəhrəmanlıq, vətənpərvərlik və zəhmətsevərlik motivləri onun dram yaradıcılığında da əsas mövzulardandır.

Himalay Ənvəroğlunun fikirlərinə əsaslanaraq deyə bilərik ki: "Dramaturgiya bədii yaradıcılığın çətin, mürəkkəb bir sahəsidir. Onun poetikasının çoxlu incəlikləri vardır. Hər şey burada zər-

gər dəqiqliyi ilə ölçülüb-biçilməlidir. Yəni bu formada yaradıcılıq imtahanı vermək özünə tələbkarlıqla yanaşan üçün müşkül məsələdir" [3, s.95]. Belə bir sual yaranır: bəs uşaqlar üçün dramatik janr necə olmalıdır? Ümumiyyətlə, "ədəbiyyatı, onun növ və janrlarını böyüklər və ya kiçiklər üçündür", – deyə ayırmaq doğrudurmu? Uzun illərdir ki, alimlər bu məsələlər üzərində geniş müzakirələr aparmış, müxtəlif qənaətlər ortaya qoymuşlar. Şübhəsiz, ədəbiyyatın tərbiyəedici funksiyası hamıya aiddir. Buna baxmayaraq, uşaqların dünyabaxışı, düşüncəsi, ətrafında baş verən hadisələri qavraması fərqlidir. Ona görə də onlar üçün nəzərdə tutulmuş ədəbiyyatı yaradanlar daha həssas və diqqətli olmalıdır. Sözün əsl mənasında, uşaq ədəbiyyatı yaratmaq şərəfli və müşkül bir işdir.

Tofiq Mahmud "Qarşımda bir kitab var" məqaləsində yazır: "Uşaqlar üçün, məktəb teatrları üçün pyeslərdən ibarət kitabların az olması dözülməzdir" [5, s.95]. Şairin şeirlərində olduğu kimi, dramları da böyük səmimiliklə qələmə alınmışdır. Azərbaycan uşaq ədəbiyyatının çiçəklənməsində yorulmadan, böyük fədakarlıqla çalışan Tofiq Mahmud uşaq və gənclərin ruhunu duya bilmiş, onların problemlərinə həssaslıqla yanaşmışdır. Dramaturgiya daha çox yarandığı dövrün ruhunu ehtiva edir. İctimai-siyasi mühitdə baş verən hadisələr uşaq dramaturgiyasında da iz qoymuşdur. Bu fikri Tofiq Mahmudun dram yaradıcılığı da sübut edir. Diqqət edildikdə aydın görünür ki, müəllif öz dövrü üçün aktual olan mövzu və qəhrəmanlar seçmişdir.

Poeziya və nəsr yaradıcılığının əsas istiqaməti hesab olunan Tofiq Mahmudun Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılan materiallar (Fond № 538, Siyahı № 5. 1.5. Dram əsərləri. Bu siyahıya daxil olan sənədlər 1954-1997-ci illəri əhatə edir) [7] arasında, ümumilikdə, 35 pyesi, 10 ssenarisi var. Pyeslərin yaranma tarixlərinə diqqət edək: ilk pyesin qələmə alındığı 1955-ci il və son pyesin yazıldığı 1988-ci il. Sovet dönəminin təxminən son otuz ilini əhatə edən aradakı uzun bir zaman onu deməyə əsas verir ki, dram yaratma istəyi T.Mahmudda keçici bir həvəs olmayıb. Ümumiyyətlə, Azərbaycan uşaq dramaturgiyasında 1960-80-ci illər daha çox məhsuldarlığı ilə yadda qalıb. Arif Səfiyev bu barədə belə yazmışdır: "Həmin dövrün dramaturgiyası, hər şeydən əvvəl, müasirliyin mühüm mövzularına toxunması, həyatın özündə gedən prosesi konkret olaraq zamanın mahiyyətinə uyğun olan hadisələrdə əks etdirməsi ilə fərqlənir" [4, s.5].

Onu da demək yerinə düşər ki, Tofiq Mahmudun uşaq ədəbiyyatındakı yeri və dəyəri qələmə aldığı rəngarəng şeir və hekayələr əsasında səciyyələndirilmiş, pyeslərinin varlığı haqqında isə bu vaxta qədər heç bir araşdırma və tədqiqatda bəhs olunmamışdır. İlk dəfədir ki, şairin dramları sistemli olaraq araşdırma obyektinə çevrilir.

Tofiq Mahmudun dram yaradıcılığını şərti olaraq üç yerə ayırmaq olar: Məktəbəqədər və ibtidai sinif şagirdləri üçün; onuncu sinif şagirdlərinin həyat və sərgüzəştlərindən bəhs edən; gənclərin qayğıları, sevgisi, istək və arzuları əks olunan pyeslər.

Tofiq Mahmud kiçikyaşlı uşaqların psixologiyasına və dünyagörüşünə uyğun bir sıra pyeslər qələmə almışdır. Məktəbəqədər və ibtidai sinif şagirdləri üçün "Sehrli kitabxana" 2 pərdəli, rəqsli, gülüşlü, fantastik nağılvarı pyesinin ilk variantını 1977-ci ildə Tofiq İsmayılovla birgə işləmişdir. "Sehrli kitabxana"da müəllif düşüncələrini rəvan dillə, uşaqların anlayacağı tərzdə, həm də əyləncəli üslubda mətnə gətirməyə çalışmışdır. Bu tip mətnlər daha tez yaddaqalan olur, bir növ uşaqların hafizəsinə hopur, onlara maraqlı təsir bağışlayır.

*Bizim bu kitabxana*
*Bir günəşdir, bir günəş,*
*İşıq salır cahana*
*Sehrli kitabxana!!!*

Dramaturq burada daha çox təlim-tərbiyə məsələlərini ön plana çəkmişdir. Pyesdəki hadisələr, rəqslər, mahnılar bir-biri ilə əlaqələndirilmiş, eyni zamanda maraqlı və ibrətverici təsir bağışlayır. Hadisələrin inkişafında hər bir obrazın özünəməxsus rolu vardır. Səliqəli, çalışqan qızların nağıllar aləminə düşməsi, pintilik, tənbəllik və dəcəlliyin pis keyfiyyət kimi təqdimi, sehrli nağıl





qəhrəmanları ilə məzəli söhbətlər, əylənərək səhvlərindən nəticə çıxarmaları təbii təsir oyadır. Sonrakı hadisələri izləyərkən 9-10 yaşlarında olan Gülərlə Sevincin necə cürətli olduğunun şahidi oluruq. Onlar çətinlikdən qorxmadan mübarizə aparırlar. Nağıl-pyesdə real obrazlarla yanaşı, nağıllardan tanıdığımız Cırtdan, Dovşan, Sərçə, Tülkü, Cücə, Qaranquş, Kirpi və s. alleqorik surətlər də yer almışdır. Onların köməkliyi ilə uşaqlar zirəklik, tənbəllik, pis, yaxşı xüsusiyyətləri ayırd edə bilir. Müəllif uşaqları qarşılıqlı yardım hissi, yoldaşlıq, xeyirxahlıq kimi mənəvi keyfiyyətlər haqqında düşünməyə vadar edir. Monoloq və dialoqlar alleqorik dillə danışan personajların xarakterini aydın görməyə imkan verir. Pyesdə əsas qayə xeyirlə şərin mübarizəsinə söykənir. Xeyirxahlığı təmsil edənlər: Nağılçı baba, cırtdanlar, Buratino, Sünbül kukla; şərin təmsilçiləri "Ay-az – his-pas" (üz-gözü, pal-paltarı çirkli uzun bir oğlan), "Axsaq-koxsaq", "Bilmirəm" və s. Obrazların daxili aləmi, xarakterik cizgiləri də bu adlara yanaşmada açıq görünür. T.Mahmud Azərbaycan və dünya ədəbiyyatına məxsus nağıl obrazlarından, folklor poetikasından məharətlə istifadə etmiş, uşaq dramaturgiyasını bu cür bədii nümunələrlə zənginləşdirməyə çalışmışdır.

Pyesin bədii özəlliklərindən biri də burada nəsrlə nəzmin məharətlə əlaqələndirilməsidir. Əsas dramatik hadisələrin mənsur şəkildə yazıldığı əsərdə verilmiş mənzum parçalar, bir tərəfdən əsəri forma baxımdan zənginləşdirmiş, digər tərəfdən isə dramatizmi qüvvətləndirmişdir. Dramaturq azyaşlılar üçün nəzərdə tutduğu bu pyesdə dilin sadəliyi, əlvanlığı ilə yanaşı, onun təsvir olunan mövzuya və hadisələrə uyğunluğuna da diqqət yetirmişdir. Janrın dil-üslub xüsusiyyətlərini gözləməklə yanaşı, uşaqlarda romantik əhval-ruhiyyə oyatmağa çalışmışdır. Tofiq Mahmud məqalələrinin birində yazır: "Bəli, uşaq uşaq kimi qalmalıdır, onu dövrün, zamanın, həyatın müxtəlif problemləri ilə yükləmək lazım deyil. Uşağa kitab oxumağı öyrətmək və bunu vərdişə, ehtiyaca çevirmək lazımdır. Mütaliə hava və su kimi insana gərəkdir" [5, s.4].

*Kitablar ulduzumuz*
*Yoldaşımız, dostumuz...*
*Bir anadır, bir ana,*
*Sehrli kitabxana!*

Anaya, günəşə tən tutulan "Sehrli kitabxana"da əsas məqsəd uşağa ədəbiyyatı təkcə dinləməklə deyil, həm də oyun oynamaqla tanış etmək, sevdirməkdir. "Kitab – parlaq bir ulduz, Kitab – işıqdır, işıq" deyən Tofiq Mahmud yazır: "Balaca vaxtdan özünü zəhmətə, öyrənməyə, şirin və gözəl arzularla yaşamağa, kitabı sevməyə, müntəzəm surətdə mütaliə etməyə öyrədən uşaq gələcəkdə, heç şübhəsiz, ağıllı, kamallı, yüksəksəviyyəli, mədəni, inkişaf etmiş bir vətəndaş olacaqdır". Bu baxımdan "Sehirli kitabxana" mənəvi cəhətdən aktuallıq kəsb edən əsərdir. T.Mahmudun hər zaman diqqətdə saxladığı bu mövzu 1967-ci ildə "Azərbaycan müəllimi" qəzetində dərc olunan "Mütaliəyə marağı gücləndirməli" məqaləsində də geniş şəkildə bəhs olunub [6]. Uşağa ötürülən mesajın – ideyanın çatdırılmasında mövzuya diqqət olunmalıdır. Xüsusən də bu mesaj səhnədən, canlı çatdırılacaqsa, daha çox həssaslıq tələb edir. Dramatik mətn uşaqlar üçün nəzərdə tutulmuşsa, yazıçı onun dilinə də xüsusi diqqət yetirməlidir. Qeyd etmək vacibdir ki, personajların təsviri zamanı ifa olunan hərəkətlərlə ünsiyyət bir-birini tamamlamalıdır. Yazar məhz bu səpkidə qələmə alınmış əsərlə məqsədinə nail olar, uşaqların təxəyyülünə təsir edər, qabiliyyətlərini inkişaf etdirər, fərdi xarakterini formalaşdırar.

Dram kiçiklər üçün vacib olan arqumentlərdən ibarətdir. Kompozisiya baxımından folklor motivləri ilə zəngin pyesin əsasında rəngarəng, şən əhval-ruhiyyə yaradan tamaşa hazırlamaq olar. Tofiq Mahmud 1983-cü ildə "Kitabxana həmişə açıqdır" (və ya "Sehrli kitabxana") adlı ssenari də yazmışdır. Belə səhnə əsərləri uşaqlar tərəfindən asanlıqla mənimsənilir, eyni zamanda uşağa hər hansı bir ideyanı çatdırmağın ən yaxşı yoludur. Tamaşanın uşağa təsiri ilə mühüm əxlaqi hisslər formalaşır. Bu cür pyeslər səhnələşdirilərsə, uşaqların nitqini, yaddaşını, yaradıcılığını, təfəkkürünü, hisslərini, eləcə də həmyaşıdları və müəllimlərlə ünsiyyət qurmaq bacarıqlarını inkişaf etdirməyə imkan yaradar. Bundan başqa, həm də kollektiv münasibətlərin fəal inkişafına da təkan olar.

Uşaqlarda gələcək həyat üçün zəruri olan keyfiyyətlər tərbiyə olunar. Uşaq və yeniyetmələrdə bir tamaşaçı kimi teatr və kino mədəniyyətinin formalaşması onların ədəbi təhsili qədər vacibdir.

Tofiq Mahmud uşaq auditoriyasını cəlb edəcək mövzularda pyeslər qələmə almağa hər zaman diqqət etmişdir. Müəllifin kiçikyaşlı məktəblilər üçün 1958-ci ildə qələmə aldığı "Meşədə qala" adlı üçşəkilli pyesin süjeti altıncı sinif şagirdlərinin sərgüzəştləri üzərində qurulub. Burada uşaqlara vətənpərvərlik, dostluq, dürüstlük, qorxmazlıq, mətinlik aşılanır. Bu baxımdan əsas qəhrəmanların adının Rövşən, Cavanşir olması heç də təsadüfi deyil. Pyesdə uşaqlar iki qütbə ayrılır: Rövşən, Cavanşir dürüst, Zəki, Nuru isə bir qədər qorxaq, tamahkar, günahını boynuna almaq istəməyən insanlar kimi təqdim olunur. Kərim dayı meşənin sirləri, heyvanların meşə üçün faydası və yaralı cüyürü xilas etməsindən danışır. Onun söhbətlərini dinləyən Nurunun peşmanlığı, meşəbəyinin başına gələnlərdən ibrət alması maraqlı bir dillə verilir. Müəllifin uşaq psixologiyasına bələdliyi aydın nəzərə çarpır. Pyesdə təsvir olunan personajların hər biri daxili-mənəvi cizgilərinin özünəməxsusluğu ilə yadda qalır. Əsər bu torpağa, yurda sahib çıxmaq, onu qorumaq, heyvanlara mərhəmət hissi yaradır və bütün zamanlar üçün aktual mövzudur. Kiçikyaşlı məktəblilərin mənəvi inkişafında bu tip pyeslərin əhəmiyyəti danılmazdır.

Tofiq Mahmudun Hikmət Ziya ilə birgə yazdığı ("Meşədə qala" pyesi ilə eyni mövzu və məzmunda) "İtmiş qala" üçşəkilli pyesi 1972-ci ildə "Azərbaycan pioneri" qəzetində işıq üzü görüb. Bir çox məqamlar oxşar olduğuna görə 1970-ci ildə qələmə alınmış "Dağ meşəsinin xəritəsi" radiopyesini "İtmiş qala" ("Meşədə qala") əsərinin yeni variantı hesab etmək olar.

Tofiq Mahmud "Məktəbə gedəcəyəm", "Yay günlərində", "Bağban, pələng və uşaqlar" adlı pyeslərini 1983-cü ildə qələmə almış və "Göyərçin" jurnalında nəşr etmişdir. 4-5 səhifəlik kiçik əsərlərdə uşaqların maraqlı əyləncəli istirahəti, bağça ilə vidalaşıb məktəbə hazırlaşan balacaların həyəcanı maraqlı bir dillə qələmə alınıb. Uşaq dramaturgiyasının pedaqoji və tərbiyə tələblərinə uyğun olaraq, Tofiq Mahmud hadisələrin inkişafında humanist ideyaların ifadəsinə çalışmışdır. Bu nümunələr müəllifin uşaq dünyasına dərindən bələd olduğunu sübut etməklə yanaşı, mövzu və ideya baxımından da balacaların təxəyyülünü genişləndirmək gücünə malikdir. İlk pyeslərlə sonrakılar arasında keyfiyyət, bədii sənətkarlıq baxımından da köklü fərqlər nəzərə çarpır.

Tofiq Mahmud, əsasən, qələmə aldığı pyeslərin demək olar ki, hamısında maarifçiliyi təbliğ edir. Məktəbi, sözün əsl mənasında məbədə çevirməyin tərəfindədir. Dramaturq pedaqoji sistemin mühüm məsələlərini diqqətdə saxlamış, dramaturgiyanın imkanlarına əsaslanmaqla, gənclərə yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılamağa çalışmışdır. O yazırdı: "Onuncu sinifdə oxuyan uşaqlarla həmişə maraqlanıram. Onların həyatından yazmaq üçün material toplayıram. Tez-tez məktəblərdə görüşlərdə oluram, bu görüşlər zamanı uşaqlardan çox şey öyrənirəm. Onuncu sinif məktəbdə ən gözəl sinif sayılır, bir növ məktəbin gözüdür. Çünki bu körpü kimidir, həyatla məktəb arasında qalsa da, onun elə mənalı, elə maraqlı cəhətləri, xüsusiyyətləri var ki, bu dövrdən nə qədər əsər yazılsa, yenə də azdır" [5, s.4]. T.Mahmudun dramlarının əsas mövzusu bu istiqamətlə əlaqədardır. Zahid Xəlilin fikirlərinə istinadən deyə bilərik ki: "50-ci illərin əvvəllərində uşaqlar üçün yazılmış və tərcümə edilmiş əsərlərdə quruculuq dövründə əmək adamlarının hünəri, məktəb həyatı, onun daxili mahiyyəti, tərbiyə prosesinin xüsusiyyətləri, məktəbin real cəmiyyətlə ayrılmaz əlaqəsi, müəllimlərin yaradıcı, novator əməyi və sair problemlərə daha çox yer verilirdi" [2, s.340]. Dramaturqun 1959-cu ildə qələmə aldığı "Onuncular", "Balaca riyaziyyatçılar", "Boksçunun yumruqları" birpərdəli kiçik pyeslərdə məktəblilərin gündəlik sərgüzəştləri yer alıb. Bu əsərlərdə uşaqların dilindən verilən fikirlər çox zaman təəccüb doğurur, kiçik qəhrəmanlar böyüklər kimi danışdırılır. Oxumağın, öyrənməyin faydası nəsihətçilik yolu ilə verilir. Burada yeri gəlmişkən, Tofiq Mahmudun öz fikirlərinə müraciət etmək doğru olar: "Uşaq ədəbiyyatı böyük, ciddi, məsuliyyətli və çox şərəfli bir ədəbiyyatdır. Bu sahədə uşaq ruhu, psixologiyası ilə yanaşı, sənətkarlıq da olmalıdır. Özü də böyük və yüksək sənətkarlıq" [5, s.5]. Görünür, bəzisi tez-tələsik qələmə alınmış pyeslərin çap olunmamasının bir səbəbi də müəllifin uşaq ədəbiyyatına böyük həssaslıq və tələbkarlıqla yanaşmasında olmuşdur.





**Nəticə / *Conclusion***

Pyeslərin arasında bu günlə səsləşən, kiçiklərin mənəvi dünyasına işıq tutmağa qadir nümunələr də az deyil. Ayrı-ayrı parçaların, bir-birinə oxşayan, təkrar kimi görünən əhvalatların olmasına baxmayaraq, pyeslərin hər birində uşaqların daha çox xeyirxahlığa, nəcibliyə səslənişi, onların tərtəmiz dünyaları, əxlaqlı, ləyaqətli bir insan kimi yetişmələri yönündə iştirakı əsas yer tutmuşdur. Geniş imkanlara malik dram, həyatı uşağa göstərməyin həm çox asan, həm də digər mənada çətin və mürəkkəb üsuludur. Tofiq Mahmudun bir sıra uşaq dramları mövzu, ideya, süjet, maraqlı personajlarla bu janrı zənginləşdirmək gücündədir. Dramaturq uşaq və gənclərin qəlbinin dərinliklərinə, mənəvi-əxlaqi mahiyyətinə enməyi bacarmışdır.

**Ədəbiyyat / *References***


1. Həbibbəyli, İ. Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı dünyası. – "Ədəbiyyat" qəzeti, 2020, 1 iyun.
2. Xəlil, Z., Əsgərli, F. Uşaq ədəbiyyatı. (Dərslik) – Bakı: Pedaqoji Universitetin nəşri, 2011.
3. Qasımov, H. Azərbaycan dramaturgiyası: tarixilik və müasirlik. – Bakı: Nurlan, 2008.
4. Səfiyev, A. Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-80-cı illər) Bakı: "Ozan", - 1998.
5. Tofiq, M. "Qarşımda bir kitab var" məqaləsi. Tofiq Mahmudun əlyazmaları. Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılan materiallar (Fond № 538, Siyahı №5. 1.4. Məqalələri)
6. Tofiq, M. "Mütaliəyə marağı gücləndirməli" (uşaqlar üçün gözəl əsərlərin yaradılması haqqında) "Azərbaycan müəllimi" 1967, 8 yanvar.
7. Tofiq Mahmudun əlyazmaları. Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılan materiallar (Fond № 538, Siyahı №5. 1.5. Dram əsərləri)


## Значение детских драм Тофика Махмуда в формировании национального самосознания

**Ильхама Агазаде**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: iahmadova@inbox.ru

**Резюме.** Драма, являющаяся общим звеном литературы и театра, имеет большую роль в нравственном развитии детей и формировании национального самосознания. К середине 20 века возрастает внимание к детской драматургии. Одним из авторов, регулярно писавших драмы для детей и юношества в азербайджанской детской литературе, был Тофик Махмуд, первый опыт пера, которого приходится на середину прошлого века. Большая часть творчества Тофига Махмуда связана с детьми. Большинство пьес, написанных на современные темы, запоминаются разнообразными сюжетами, событиями и сценками из жизни детей. Поэт старался пробудить в детях добрые и благородные чувства. Автор выбрал актуальные для своего времени темы и героев. Мотивы борьбы, героизма, патриотизма и трудолюбия также входят в число основных тем его драматических произведений. Кроме того, школьная тема в полной мере выражена в детских спектаклях Тофига Махмуда. Он оставался верен этой теме до конца своей литературной драмы. Так, в различных пьесах он освещал вопросы школы, педагогической среды, репутации учителя.

Тофик Махмуд написал ряд пьес, подходящих для психологии и мировоззрения детей раннего возраста. Он умело использовал сказочные образы и фольклорную поэтику, принадлежащую азербайджанской и мировой литературе, старался обогатить детскую драму различными художественными образцами. Всего в Государственном архиве литературы и искусства Азербайджанской Республики имени Салмана Мумтаза хранится 35 пьес и 10 киносценариев Тофика Махмуда (фонд № 538, список № 5. 1.5. Драматические произведения. Документы, включенные в этот список относятся к 1954-1997 гг.). В своих пьесах для несовершеннолетних драматург обращал внимание на простоту и беглость языка, а также на его актуальность изображаемому предмету и событиям. Помимо выжидания языковых и стилистических особенностей жанра, он старался пробудить в детях романтическое настроение.

**Ключевые слова:** детская литература, национальное самосознание, драматургия, театр, сценарий, школа